**Dövlət torpaqlarından istifadəyə nəzarət gücləndirilir…**

Əmlak Məsələləri Dövlət Komitəsində (ƏMDK) dövlət əmlakından, o cümlədən dövlət torpaqlarından səmərəli istifadənin təmini və bu sahədə nəzarətin daha da gücləndirilməsi məqsədi ilə xüsusi komissiya yaradılıb. Komissiya daşınmaz dövlət əmlakından və dövlətə məxsus torpaq sahələrindən istifadə vəziyyətinin səmərəliliyini araşdırmalı və qeyri-qanuni istifadə hallarını aşkara çıxarmalıdır.

Komissiyanın apardığı monitorinqlər nəticəsində dövlət əmlakından istifadə vəziyyəti konkret hallar üzrə araşdırılacaq. Bu, vəziyyəti daha dəqiq öyrənməyə, çatışmazlıqları aşkar edərək təsirli tədbirlər görməyə imkan verəcək. Komitədən həmçinin bildirilir ki, dövlət əmlakından istifadə vəziyyətinin səmərəliliyinin araşdırılması zamanı, ilk növbədə, əmlakın və torpaq sahəsinin qorunub saxlanmasına, dövlət torpaqlarından qeyri-qanuni istifadə hallarının aradan qaldırılmasına diqqət yetirilir. Bundan başqa, əmlakdan qanuni və ya qanunsuz istifadə olunması, eləcə də boş və istifadəsiz qalmış sahələr müəyyənləşdirilir.

Məlumatda qeyd olunur ki, indiyədək aparılan monitorinqlər nəticəsində dövlət əmlakından qeyri-səmərəli istifadə halları aşkara çıxarılıb. Belə ki, qanunvericiliyə görə, dövlət müəssisələrinin balanslarındakı daşınmaz əmlakı birbaşa istifadəyə və ya icarəyə vermək səlahiyyəti yoxdur - bu məsələlər yalnız ƏMDK-nin səlahiyyətindədir. Amma bəzi dövlət qurumları qanunun bu tələbini pozaraq balanslarında olan əmlakı digər şəxslərin icarəsinə və istifadəsinə verirlər. Bəzən komitənin icarəyə verdiyi əmlakın istifadəsindən icarəçinin imtina etməsi nəticəsində müqaviləyə xitam verilir, lakin həmin əmlakda qeyri-qanuni olaraq başqa təşkilatın yerləşməsinə balans saxlayıcı tərəfindən şərait yaradılır.

Komissiya dövlətə məxsus torpaq sahələrindən istifadə vəziyyətini də araşdırılaraq bu sahədə pozuntuları aşkara çıxarıb. Məsələn, məlum olub ki, dövlət müəssisəsinə məxsus torpaq sahəsində yerləşən yardımçı tikililər olan torpaq sahəsi bəzi hallarda müvafiq icra hakimiyyətinin qərarları ilə sahibkarlıq məqsədilə hüquqi və fiziki şəxslərə verilib. Belə halların qarşısının alınması üçün qanunvericiliklə müəyyən olunmuş tədbirlər həyata keçirilir. Həmin torpaqlarda qeyri-qanuni tikintilərin qarşısının alınması üçün də tədbirlər görülür. Hələlik Bakı şəhərində aparılan monitorinqlərin sonrakı mərhələdə respublikanın digər şəhər və rayonlarını da əhatə edəcəyi vurğulanır.

Komissiya əhalinin istifadəsində olan dövlət əmlaklarından, məsələn, yaşayış binalarının birinci mərtəbələrində dövlətə məxsus qeyri-yaşayış sahələri, zirzəmi və yarımzirzəmilərdən istifadə vəziyyətini də araşdıracaq. Belə ki, qanunvericiliyə əsasən çoxmərtəbəli yaşayış binalarının birinci mərtəbələri, zirzəmiləri və yarımzirzəmiləri əksər hallarda dövlət əmlakı kimi nəzərdə tutulub. Lakin belə sahələr bəzi hallarda xidmət müqaviləsi adı ilə icarəyə və istifadəyə verilir. Komitədə hesab edirlər ki, belə halların aşkarlanması həmin sahələrin dövlətsizləşdirilməsinə və özəlləşdirmə prosesinin sürətləndirilməsinə səbəb olacaq.

Bundan başqa, yaşayış binalarındakı zirzəmilərin bir hissəsi burada yaşayan sakinlər tərəfindən qeyri-qanuni istifadə olunur. Araşdırmalar zamanı belə halların aşkarlanması və qarşısının alınması, zirzəmilərdən istifadənin qanuni müstəviyə gətirilməsi nəzərdə tutulur. Yəni zirzəmilərdən istifadə qanuni icarə əsasında mümkün olacaq. Bu obyektlərin özəlləşdirilməsi zamanı isə üstünlük həmin əmlakın icarəçilərinə və istifadəçilərinə veriləcək.

Dövlət əmlakından istifadənin səmərəliliyini artırmaq üçün həyata keçirilən mühüm tədbirlərdən biri də bu sahədə elektron xidmətlərin tətbiqidir. Hazırda əmlakdan istifadənin vəziyyəti ilə bağlı dövlət qurumlarından illik xüsusi hesabatların elektron formada qəbuluna hazırlıq gedir. Hesabatların elektron formada qəbulu sayəsində istənilən rayon və şəhərdə dövlət əmlakının vəziyyətini müəyyənləşdirmək mümkün olacaq.

Komitə il ərzində 6500-ə yaxın hesabat qəbul edir, onların yoxlanmasını və təhlilini həyata keçirir. Yeni proqram qurulandan sonra bu iş avtomatlaşdırılacaq, böyük həcmdə yazışmaların qarşısı alınacaq. İstənilən dövlət qurumu və ya müəssisəsində dövlət əmlakının hərəkətini izləmək mümkün olacaq. Bu isə dövlət əmlakının istifadəsində nəzarəti və bu sahədə səmərəliliyi artırmağa imkan verəcək.

Hazırda bu sistemin tətbiqi üzrə işlərə başlanılıb.

AYTƏN